# Dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi üçün dünyagörüşünün səviyyəsi yoxlanılması üzrə PROQRAM

Dövlət qulluqçusunun **dünyagörüşünün səviyyəsi** ölkədə və cəmiyyətdə baş verən mühüm hadisələrə dair hazırlanmış test tapşırıqları əsasında yoxlanılır. Dünyagörüşü Azərbaycan tarixi, coğrafiya, mədəniyyət və ədəbiyyat sahələri üzrə ümumi bilikləri əhatə edir.

**Azərbaycan tarixi** üzrə test tapşırıqları qədim dövrlərdən müasir dövrədək xalqımızın dövlətçilik ənənələri, Azərbaycan xalqının təşəkkülü və formalaşması, Azərbaycanın məruz qaldığı yad təsirlər və onlara qarşı mübarizə, tarixi proseslərin gedişində ortaya çıxan dövlət qurumlarımız, milli azadlıq hərəkatı, dövlətçiliyimizin bərpası, qorunması, inkişafı, müasir dövrdə Azərbaycanın dünyadakı mövqeyi, ölkənin ümumi inkişafını şərtləndirən amillər, I və II Qarabağ müharibəsi haqqında məlumatları əhatə edir.

**Coğrafiya** üzrə test tapşırıqları ölkəmizin təbiəti, təbii ehtiyatları, əhalisi, iqtisadi inkişaf meyilləri haqqında coğrafi bilikləri, insan və təbiətin qarşılıqlı əlaqəsini, qlobal problemlər və bunların Azərbaycana təsiri barədə bilikləri əhatə edir.

**Mədəniyyəti** əhatə edən test tapşırıqları qədim zamanlardan bu günə kimi mədəniyyətimizin keçdiyi tarixi inkişaf yolunu əhatə edir.

**Ədəbiyyatı** əhatə edən test tapşırıqları dövlət qulluqçularının müxtəlif ədəbi növdə olan əsərlərin məzmununu, onların xalqımızın inkişafındakı rolunu, taleyüklü hadisə və proseslərə yazıçı mövqeyini özündə əks etdirir.